

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# ÖZ NAĞILLARINI YAŞAYAN VƏ YAZAN ŞAİR

## Onun ürəyi bir dünyadı

**İnsan hələ özünü dərk etmədiyi andan başlayaraq, dünyaya qəribə bir maraqla, qəribə bir nəzərlərlə baxır. Çünki hər şey onun üçün təzədi, tərdi. Hətta əlini yandıran köz də... qulaqları eşitdiyi söz də... özünə zillənmiş göz də... Bax, bu sıranı davam etdirsək, toxunduğu ilk oyuncaq da... duyduğu ilk hənir də, yanağına toxunan dodaqlar da... təmasda olduğu torpaq da.... evdə yandırılan lampa da... hürən it də... banlayan xoruz da... səs-səsə verən quşlar da... ətir saçan çiçəklər də... hətta içdiyi su da... Bütün bunlar o qədər maraqlı, o qədər qəribə gəlir ki, özündən başqa heç kimin bunları gördüyünə inanmırsan və beləcə, hər şey sənin üçün nağıllaşır və başlayırsan özünün ilk nağıllarını, ilk laylalarını, ilk bayatılarını, ilk qəhqəhələrini yaddaşına köçürməyə...**

Yaddaşına köçənlər ömrün boyu sənin yol-yoldaşın olur. Çünki sən o nağılların içərisindən keçib gəlmisən... Və öz nağıllar dünyanı qurmusan. Təbii ki, bu bir insanın, bir Allah bəndəsinin dünyaya gəlişi ilə başlayan nağıldır. İllər keçir, həmin nağıl duyumu, fəhmi, istedadı, sözlə yaşamaq fərasəti və qabiliyyəti olanlar tərəfindən gerçək nağıllara çevrilir... hamının dinləyəcəyi, hamının oxuyacağı nağıllara. Bax, həmin nağılların həm qəhrəmanı, həm də bizə danışanları arasında Sizin yeriniz tamam fərqlidir. Çünki Sizin özünüzün bu dünyaya gəlişiniz etiraf etdiyiniz kimi - BİR NAĞIL İDİ... Axı o nağılı Siz yaşayıb, Siz sözə çevirmisiniz və yazmısınız ki:

**Bu necə atəşdi yanır içimdə,
Bu oddan alışır, yanır içim də...
Yanğıma səpməyə su tapılmayır,
Sonuncu nəğməsin son nəfəsində
Son dəfə oxuyan Qu tapılmayır.**

Mən o son nəfəsində o son nəğmənin də, hətta tapılmayan Qu quşunun da nə olduğunu, hansı anlamı verdiyini, hansı sözün qatlarında qərar tutduğunu az-çox bilirəm. Ona görə də bu nağıla axıra kimi qulaq asıram - özü də təkcə səbrlə yox, həm də maraqla. Elə düşünməyin ki, göydən düşəcək üç almanı gözləyirəm. Yox! Bizim almalar artıq üç deyil, altmışdı, altmış beşdi. Və deməli, onların nə vaxt silkələnib töküləcəyi Tanrı əlindədi. Əgər ömür ağacının budaqları o almaları saxlaya bilsə... Deməli, nağıllarımız seriallar kimi davamlıdır. Çünki:

**Bir vaxt necə bəxtəvərdim,
Xoşbəxtlikdə tayım yoxdu...
Ata, ana, qardaş sağdı...
... Ta onlarlı ayım yoxdu.**

**Köçüb neçə dost-tanışım,
Eh... nə qaldı... nə danışım.
Dünyayla küsüm, barışım?
Yaşamağa hayım yoxdu...**

Mən bu şeirə ona görə istinad edirəm ki, köçənlərin xatirəsini ürəyimizdə və çiyinlərimizdə daşımaq da bizim üzərimizə düşür. Üstəlik, oğul-uşaq, nəvə-nəticə haqqı da bu yükə naxış vurur, özü də göz oxşayan, könül sevindirən naxış. Ona görə də dünyaya gəlişi nağıl olan Allah bəndəsinin, xüsusilə söz sərrafı şairin məsuluyyəti də, çəkdiyi yük də ağır və böyük olur. Yazımın bu nöqtəsində onun nağıl dünyasından qopub yanına, görüşünə gəlirəm, üzbəüz dayanıram. Həmişə təmkinli və son dərəcə də məntiqli fikirlərilə mənə doğma olan, ruhumu ifadəmdən, hərəkətimdən dəyərləndirən Asim



müəllimlə tanışlığımızın ilk anına nəzər yetirirəm. Və həmin anda xatırlayıram ki, söz adamları, şairlər ruhən qardaşdılar, doğmadılar. Ona görə də Asim Yadigarla mənim qardaşlığımın, dostluğumun yaşı sözə könül verdiyim andan başlayır. Bu hesabla ifadə etsəm, ən azı 50 yaşı var bu dostluğun, qardaşlığın. Və həmin o yarım əsri də biz öz nağıllarımızla şeirləşdirmişik.

Bu gün 65 yaşının kürəyini yerə vuran Asim müəllim mənim üçün tək qardaş, dost deyil. O həm də Azərbaycan ədəbiyyatında sözünü göyərdən, sözünün diri qalmasını təmin etməyi bacaran USTAD şairdi. Ona görə də mən onun 65 yaşına içimdən gəlib keçənlərin hamısını yazmaqda çətinlik çəkirəm. Onun barəsində yazılanların, deyilənlərin sırasında mənim yazdığım, dediyim çox kiçikdi. Bunu tam mənasıyla anlayıram. Bu səbəbdən də nə Asim müəllimin kitablarının, əsərlərinin adını çəkirəm, nə də onlara ədəbiyyatşünas qiyməti verirəm. Mən çox dəqiq də bilirəm ki, onun sözünün, kitabının qiymətini ədəbiyyat tariximiz verəcəkdi. Mən isə bu yubiley günlərində dostum-qardaşım Asim Yadigarla ən xoş arzularımı, ən xoş istəklərimi, Tanrıya çatacaq dualarımı bölüşürəm. Və demək istəyirəm ki, qardaş, özün yazmısan:

**Sənə, mənə dərdi tanış, kədəri tanış,
Dörd bir yana çapdığımız kəhəri tanış,
Ayı, günü, hər axşamı, səhəri tanış
Bərk tutmuşuq ətəyindən - ətəkdi dünya.**

**Duyğusuzlar duya bilmir - duyğusu vardır
Tanrı qurub, pozulmayan qurğusu vardır.
Ürək kimi döyünür o, vurğusu vardır,
Ürəkliyə, ürəksizə ürəkdi dünya.**

**Bəli qardaşım, bu misralardan, bu fikirlərdən sonra bir anlıq mən də düşündüm:**

**- Bizim dünyamız elə bizim ürəyimizdir!.. Bütün əlamətləri, bütün cizgiləri, bütün yaşantılarıyla birlikdə. Mənim ürəyimin yaşantılarının bir fərqlənən, sevilən qəhrəmanı da Sizsiniz! 65 yaşınız mübarək olsun!**

ədalət.-2019.-8 yanvar.-S.5.